## MUSİQİ SƏNƏTİ

**UOT 78.**
**DOI: 10.52094/3005-9941.44.2023.062**

**Zamiq Balarza oğlu Əliyev**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Xalq artisti, professor**

# MUĞAMLAR VƏ XALQ MAHNILARI DÜNYA MUSİQİSİNİN ƏCDADI VƏ ZİRVƏSİDİR

**Xülasə:** Məqalədə Azərbaycan musiqi janrlarının müxtəlif sahələrinə, onların yaranma tarixinə, mənəvi dünyamızın zənginləşməsinə bağlı bir çox mülahizələr irəli sürülür. Azərbaycan folklorunun, klassik musiqimizin tarixi və dərin mənalarına dair bir çox dahi və mütəfəkkirlərin fikirlərinə mərhələ-mərhələ yer verilir, onların təfəkkür düşüncələrindən misallar gətirilir.

Məqalənin əsas məğzi ondan ibarətdir ki, musiqinin əcdadı, Antik Misirdən, yunan-Roma tarixindən qat-qat qədim, hətta Adəmə qədər gedib çıxan Azərbaycan musiqisinin tarixi qaynaqlarından bəhs olunur və dəyərli, məqbul misallar çəkilir.

Bundan əlavə, Azərbaycan musiqisinin bütün janrlar tarixi pillələrdən keçib, müasir dünyamızın öndə gedən sahələrinə çevrilmişdir. Muğam və xalq mahnılarımız əyani təsdiq gətirir ki, Azərbaycan şifahi xalq ədəbiyyatının bir qolu olan folklorumuz dünyanın ən qədim inciləridir. Məqalədə 8 əsas mənbədən istifadə edilməklə, müasir tələblərə uyğun qeydlər verilmişdir.

**Açar sözlər:** Zərdüşt, mahnılar, Muğ, muğam, bəstəkar

## Giriş

Musiqinin əcdadı, bünövrəsi "Odlar diyarı" Azərbaycandır desək, heç də yanılmarıq. İlk musiqi və musiqi deyimləri dünya musiqisində sufi dərvişlərlə bağlı, hətta ondan da əvvəllər olmuşdur. Bunları təsdiq etmək üçün iki fikri irəli sürək.

Birinci olaraq, "Aşıq Qərib və Şahsənəm" dastanında dediklərimiz lazımi şəkildə işıqlandırılır. Dastanda deyilir:

Dinləyin ustalar, xəbər soraydım.
Bu aşıqlıq kimdən icad olubdu?
Başınıza olmaz işlər açayım,
O kimdi ki, qəmdən azad olubdu?

Aldı Aşıq Qərib:

Ay ustalar, alın verim cavabı,
Aşıqlıq Adəmdən icad olubdu.
Dinləyin sözümü bir-bir həzərat,
O Adəmdi, qəmdən azad olubdu. (1; s.46-47)

Fikrimizi bir daha təsdiq etmək üçün digər bir misal olaraq qədim xalq mahnılarımızdan birinə istinad edək.

Pinəçi mənəm, pinəçi mənəm,
İşləmişəm mədarım keçmir, ay aman
Bu qışı burada, bu qışı burada
Qışlamışam, mədarım keçmir, ay aman. (5; s.110)

Fikrimizcə, mahnıya görə, söhbət qışlaq həyatından bəhs edir. Yəni qışlaq həyatı aşiqin həyat şəraitini məhdudlaşdırır. Mədar buna imkan vermir. Mədar yaşadığı məkanın mahiyyətinə işarə edir. Yəni "başlanğıc məkan" mənasındadır.

Mədar – mərkəz, özül, təməl, coğrafiyada qütb dairəsi və xərçəng tropiki (2; s.339), (6; s. 9-60) mənasını verir.

Bu mahnı dünyanın ən qədim, bəlkə də birinci mahnısıdır. Mahnının dərin kökləri, bəşəriyyətə, həllini tapmayan Qobustan qayaüstü petroqliflərinə və xalça işarələrinə bağlanır ki, xalçalarda olan ağac və mərkəzində xərçəng şəkli dünyanın başlanğıc nöqtəsinin burada olmasını sübut edir. Yəqinləşdirir ki, bəşəriyyət məhz buradan təkanını almış, yeddi iqlim boyunca, altı istiqamətdə buradan yayılmışdır. Bu baxımdan muğamlarımız da öz növbəsində dünya musiqisinin əcdadı və zirvəsidir. Muğamların fəlsəfi mahiyyətləri bu mənəvi xəzinə təkallahlığının təməl ideologiyası və dini konstitusiyasıdır.

Yeddi muğam – yegah, dügah, segah, çahargah, pəncgah, şeşgah, həftgah, bunların fəlsəfi açmaları dünyanın yaranması və axirət dünyasının nəticəsi kimi özünü önə çıxarır (Bax: Şakir Qabıssanlı. Muğamın açılmamış sirləri).

Zaqafqaziya, o cümlədən Azərbaycan ta qədim dövrlərdən Yaxın və Uzaq Şərq ölkələrini birləşdirən regiona daxildir. Söz yox ki, bu region ölkələri arasındakı daimi əlaqələrin onların mədəniyyət və məişətində bir çox müştərək cəhətlər əmələ gətirməsinə baxmayaraq, hər xalqın mədəniyyətində özünəməxsus xüsusiyyətlər qorunub saxlanılmışdır. Bu mənada qədim ənənələrə malik Azərbaycan xalqının mədəniyyət və incəsənəti olduqca səciyyəvidir (4; s.3).

German Bamberinin "Orta Asiyaya səyahət" kitabından götürülmüş aşağıdakı sözlərinə müraciət edək: "Türkmənlər Azərbaycanı yüksək sivilizasiyanın mərkəzi hesab edirdilər. Əgər baxışdan (türkmən xanəndəsi) insan qəlbini təlatümə gətirən gözəl bir mahnı oxumağı xahiş etsələr, onda salona mütləq Azərbaycan təranələri yayılmalıdır" (4; s.4).

Onu da deyək ki, xalq musiqisi növləri və şifahi ənənəyə əsaslanan professional musiqi janrları bütün dövrlərdə bir-biri ilə çox sıx əlaqədə olmuşdur. Öz kökləri ilə gedib qədim dövrlərə çıxan xalq musiqi yaradıcılığı şifahi ənənəyə əsaslanan professional musiqi sənətinin yaranması və getdikcə inkişafı üçün faydalı zəmin olmuşdur (4; s.5). Buna görə də xalq musiqi janrları qarşılıqlı zənginləşmə, qarşılıqlı təsir prosesində inkişaf etmişdir. Məhz indinin özündə də bu cür inkişaf yolu ilə gedir (4; s.5).

Musiqi irsimizdə geniş inkişaf etmiş muğam sənəti hazırda milli musiqi-poetik incəsənətinin əsas sahəsi kimi üç növdə təşəkkül tapmışdır:

1. Muğam dəstgahları;
2. Kiçin formalı muğamlar;
3. Zərb muğamları (4; s.7).

Muğam müdriklik məktəbi, heyrətamiz hisslər ümmanı, ulu hikmət, zəka qaynağıdır. Azərbaycan muğamlarında Şərq xalqlarının heç birinə qismət olmayan əzəmət, dərinlik, əlçatmazlıq və zənginlik var. “Muğam elə bir dəryadır ki, biz ondan bir neçə qurtum içə bilmişik” (Bəhram Mansurov) (3; s.3).

Qədim tikililərimizi söküb-dağıtmağa heç kimə ixtiyar verilmədiyi kimi, muğamlarımız da toxunulmazdır. Əgər naşı memar, hörgüçü gözəl bir tikilinin bircə daşını, kərpicini səhv qoymaqla onun gözəlliyinə, əzəmətinə nə qədər xətər gətirirsə, muğamlarımız da belədir. Çünki muğam tək bir adamın yox, milyonların, ümumən xalqın sərvətidir (2; s.5). Üzeyir Hacıbəyov hər bir xalqın musiqisi barədə danışmaq üçün o musiqinin xüsusiyyətlərini, keçdiyi yolları, mahiyyəti bilməyi haqlı olaraq zəruri bir şərt hesab edirdi və deyirdi: “Məgər musiqimizin mahiyyətinə aid bütün əlamətləri bilmədən məruzə etmək olarmı? Yox, olmaz! Hətta mütəxəssislərin – professorların, alimlərin, müğənnilərin aydınlaşdırmaqda son dərəcə çətinlik çəkdiyi məsələlər haqqında əsassız iddialara yol verilməməlidir” (7; s.11).

Bəşər cəmiyyətinin bütün dövrlərində musiqi – nəğmə, mahnı, tərənə insan həyatının əvəzsiz tələbi olmuş, onu son nəfəsinədək tərk etməmiş, qəlbinə sevinc, şüuruna aydınlıq gətirmişdir (8; s.10).

Maarifpərvər şair Seyid Əzim Şirvani müğənninin musiqi alətlərini idealizə edərək onların sehrli, tükənməz zövq çeşməsi olduqlarını hikmətli misralarında tərənnümə gətirirdi:

Qoymaz ol tanrı müğənni niyə ağuşindən,
Düşməz ol xanəbarandazilərin duşindən,
Huş ilə guş edə hər kimsə huşindən. (8; s.25)

Beləliklə, demək olar ki, klassik təsniflərdə olan musiqi ifadə vasitələri bəstəkarlarımızın yaratdıqları qəzəl-romanslarda öz mürəkkəb inkişafını tapmışdır. Bunun nəticəsidir ki, onların yazdıqları bu qəbildən olan gözəl əsərlər həm ifaçıların, həm də musiqi həvəskarlarının dərin rəğbətini qazanmış və indi də sevilə-sevilə qarşılanır (8; s.212).

Muğam ənənələri Azərbaycanın müasir musiqi praktikasında müxtəlif forma və növlərdə özünü büruzə verir. O, bir tərəfdən şifahi ənənəyə əsaslanan professionallığın inkişaf prosesini davam etdirir, digər tərəfdən isə muğamlar nota yazılmaqla bu ənənələr qorunub saxlanılır (8; s.86).

Böyük sənətkarların yaradıcılığı, böyük sənət əsərləri daima insanların diqqətini cəlb edir, canlı fikirlər oyadır. Əlbəttə, bu diqqət, bu maraq həmişə eyni səviyyədə olmur, bəzən soyuyub yavaşıyır, bəzən də şiddətlənir, qızışıb alovlanır (7; s.12). Bu da hər zamanın, hər dövrün ictimai mübarizəsinin xüsusiyyətlərindən, mündəricəsindən, ideallarından asılıdır (7; s.12).

Demək olar ki, Üzeyir Hacıbəyov bütün ömrü boyu Azərbaycan musiqisi və onun inkişaf yolları barədə zərərli, yanlış fikirlər, cərəyanlar və meyil lərlə kəskin mübarizə aparmışdır (7; s.10).

Ü.Hacıbəyov xalqın inqilabi mübarizəsinə sənət əsərlərinin təsir yollarının geniş və çoxcəhətli olduğunu əsaslandıraraq deyir: "Tək-tək götürüb baxsaq, görərik ki, türk Azərbaycan opera və operettalarının hərəsinin öz-özlüyündə inqilabi, ictimai və mədəni vəzifəsi inkar qəbul etməyən bir həqiqətdir" (7; s.11).

Faktlar sübut edir ki, Azərbaycan xanəndə və sazandaları virtuoz sənətkar – oxuyan və çalan olmaqla yanaşı, şifahi professional musiqi sahəsinin mükəmməl biliciləri sayılırdılar. Bu kimi bilicilər pedaqoji sahədə də geniş fəaliyyət göstərirdilər (4; s.185).

Onu da deyək ki, muğam melodiyalarının ayrı-ayrı ünsürlərindən istifadə etmək sahəsində də bəstəkarlarımız az iş görməmişdir. Məsələn, böyük bəstəkarımız Ü.Hacıbəyov özünün bəzi əsərlərində muğamların melodik əsasındakı xüsusiyyətlərindən istifadə etmişdir. Biz ilk növbədə onun xalq çalğı alətləri orkestri üçün iki fantaziyasını örnək göstərə bilərik. Bu əsərləri, eyni zamanda "Çahargah" və "Şur" fantaziyaları da adlandırırlar. Çünki müəllif öz fantaziyalarında "Çahargah" və "Şur" muğamlarının melodik əsasına istinad edir (7; s.199).

Ü.Hacıbəyovun muğamlardan yaradıcılıqla istifadə edilməsindəki hərtərəfli ustalığı və qeyri-adi fitri istedadı onun əsərlərinin tacı olan klassik Azərbaycan operası Koroğluda cəmlənmişdir. Operada xalq mahnı və rəqsləri aşıq musiqisi ilə yanaşı, muğam, təsnifat və rəngdə təcəssümünü tapır (7; s.199-200).

Sənətin hələlik öz sahələrinə bölünməmiş vəziyyətinin ən bariz əlamətlərini indi də özündə yaşadan aşıq bir sənətkar olaraq bu gün daşımaqda olduğu addan çox qədimdir (1; s.5).

Qədim və Orta əsrlərdə aşıqlar xalqın ictimai-siyasi həyatında da əhəmiyyətli rol oynamış, bəzən, hətta hadisələrin mərkəzində dayanmış, önündə getmişdir.

Məlum olduğu üzrə "Kitabi – Dədə Qorqud"da qədim Azərbaycanın bu nəhəng sənətkarı haqqında deyilir: "Oğuzun ol kişi tamam bilicisi idi... Oğuz elinin müşkülünü o həll edirdi. Hər nə iş olsa, Qorqud ataya danışmayınca işləməzlərdi. Hər nə ki, buyursa, qəbul edilərdi" (1; s.5).

XVI əsrin əvvəllərində yaşamış Qurbani müstəqil Azərbaycan dövləti yaratmaq uğrunda mübarizə aparan hökmdar-şair Xətaini təbliğ, hətta idealizmə etmişdir. Ondan bir az sonra yaşamış Tufarqanlı Abbas isə Şah Abbas hakimiyyəti illərindəki zülmü, zorakılığı tənqid edirdi (1; s.6).

Dastan çoxmənalı söz olduğu kimi, indi əsasən dastan adlandırdığımız bu ədəbi janr da müxtəlif vaxtlarda müxtəlif adlar daşımışdır. Misal üçün, "Kitabi – Dədə Qorqud"dan göründüyü üzrə bundan bir neçə əsr əvvəl bu janra "boy" deyilirmiş (1; s.7).

Elə həmin boy – dastanlarının hamısında təkrar olunan sonluqlardan göründüyü üzrə, bizdə dastan, əlbəttə ki, bir qədər spesifik mənada "Oğuznamə" də adlanmışdır (1; s.7). Təsadüfi deyildir ki, dastanlar hamısı saqinamələrlə başlayır. Saqinamə lüğəti mənada "qədim yazılar" kimi başa düşülməlidir. Yəni gərdişi-dövranın baş verdiyi hadisələrdir.

Əsasən, yazıçı və şairlərimiz, bəzən də sadəcə ziyalılarımız bu ədəbi formaya "qissə" də demişlər. Bu ad uzun müddət tarix səhifələrində qalmışdır. "Qisseyi–Yusif" 1233-cü ildə, "Qisseyi–Şirzad" isə 1734-cü ildə yazılmışdır (1; s.8).

Dastan qoşan və məclislərdə dastan ifadə edən aşıqlarımızın özləri, eləcə də onlara qulaq asan əhali çox zaman dastana sadəcə "nağıl" demişlər. Bir sıra rayonlarımızda indi də deyilməkdədir.

Nağılda pişrov dinləyicini xəyal aləminə aparmaq məqsədi daşıyırsa, aşığın əsas dastana başlamazdan əvvəl dediyi ustadnamə bir tərəfdən qədim ustadları nəsildən-nəslə verib yaşatmaq, digər tərəfdən də ustadnamədə deyilmiş hikmətamiz aforizmləri, ağıllı məsləhətləri dinləyicilərə çatdırmaq, onları tərbiyə etmək kimi nəcib məqsədlərə xidmət edirdi.

"Can" deməklə candan can əskik olmaz,
Məhəbbət artırar, mehriban eylər.
"Çor" deyənin nəfi nədi dünyada?
Abad könlü yıxar, pərişan eylər (1; s.8).

Sonda Azərbaycan musiqisi bütün janrlar daxil olmaqla, başlanğıcı yer məkanına, sonu isə sonluğu olmayan dünyaya gedən bir yol, tükənməz bir sərvətdir.

## Ədəbiyyat siyahısı:

1. Azərbaycan dastanları. III cild. Azərbaycan SSR Elmlər Akademiyası nəşriyyatı. Bakı. 1967
2. Ərəb və fars sözləri lüğəti. Azərbaycan SSR Elmlər Akademiyası nəşriyyatı. Bakı. 1966, 1022 səh.
3. Mübariz Tahiroğlu. Muğamla yaşayan ömür. Maarif nəşriyyatı. Bakı. 1996, 115 səh.

4. Ramiz Zöhrabov. Muğam. Azərnəşr nəşriyyatı. Bakı. 1991, 217 səh.
5. Siyavuş Kərimi. Azərbaycan xalq mahnıları. I-II cild. Öndər nəşriyyatı. Bakı. 2005
6. Şakir Qabıssanlı (Həmzəyev). Bəşəri tarixə bağlı Azərbaycan toponimləri. Gənclik nəşriyyatı. Bakı. 2021, 248 səh.
7. Üzeyir Hacıbəyov. Seçilmiş əsərləri. Yazıçı nəşriyyatı. Bakı. 1965, 651 səh.
8. Vəli Məmmədov. Muğam, söz, ifaçı. İşıq nəşriyyatı. Bakı. 1991

**Zamiq Balarza oglu Aliyev**

## Mughams and folk songs are ancestors and peaks of the world music

**Summary:**The article presents discussions about various branches of Azerbaijani music, history of their formation and enrichment of our moral world. Our mughams and folk songs visually prove that a branch of Azerbaijan oral folk literature - our folklore is one of the most ancient pearls of the world.

**Key words**: mugham, folk music, oral professional music, pedagogical activity

**Замик Баларза оглы Алиев**

## Мугамы и народные песни – предки и вершины мировой музыки.

**Резюме:** В статье представлены дискуссии о различных направлениях азербайджанской музыки, истории их становления и обогащении нашего нравственного мира. Наши мугамы и народные песни наглядно доказывают, что ветвь азербайджанской устной народной литературы - наш фольклор является одной из древнейших жемчужин мира.

**Ключевые слова:** мугам, народная музыка, устная профессиональная музыка, педагогическая деятельность.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 21.11.2023**